# İstifadə Qaydaları

"ASAN müraciət" informasiya sistemi (bundan sonra - AMİS) ictimai xarakter daşıyan kommunal, yol və nəqliyyat problemləri, infrastrukturun cari təmiri, abadlaşdırılması və təmizliyi ilə bağlı müraciətlərin elektron xəritə üzərində qeyd edilməklə, operativ surətdə "ASAN müraciət" informasiya sisteminin fəaliyyətində iştirak edən aidiyyəti dövlət qurumlarına göndərilməsini və istifadəçi tərəfindən həmin müraciətlərə baxılmanın nəticələrinin sistem üzərindən izlənilməsini təmin edir.

AMİS-nin fəaliyyətində iştirak edən qurumlar:

1. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi
2. Yerli icra hakimiyyəti orqanları
3. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi
4. Dənizkənarı Bulvar İdarəsi
5. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi
6. "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti
7. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti
8. "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti
9. "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti
10. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi

AMİS-dən istifadə ödənişsizdir.
AMİS Azərbaycan Respublikasının mülkiyyətidir.

## 1. Ümumi şərtlər

1.1. İstifadə Qaydaları (bundan sonra - Qaydalar) AMİS, həmçinin "ASAN müraciət" mobil tətbiqi (bundan sonra – mobil tətbiq) istifadə şərtlərini və tərəflərin öhdəliklərini müəyyən edir.

1.2. AMİS-nin mobil tətbiqinin istifadəçisi (bundan sonra – istifadəçi) – qanunvericiliklə müəyyən edilmiş qaydada AMİS-dən informasiya əldə etmək və ya informasiyadan istifadə etmək hüququ verilmiş hüquqi və ya fiziki şəxslərdir.

1.3. İstifadəçi mobil tətbiqdə qeydiyyatdan keçib şəxsi kabinetindən istifadə etməklə Qaydaların şərtlərini qəbul etmiş sayılır.

1.4. İstifadəçi mobil tətbiqdə internet informasiya ehtiyatı üzərindən Vahid Giriş Sistemi ("ASAN login", şəxsiyyətini təsdiq edən məlumatlar, mobil nömrəsini istifadə etməklə) vasitəsilə qeydiyyatdan keçir.

1.5. AMİS-nin sahibi normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada sistem üzərində sahiblik və istifadə hüququnu həyata keçirən, habelə sistemin aparılmasını təmin edən

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyidir (bundan sonra – sahib).

1.6. AMİS-nin operatoru sahibin normativ hüquqi aktlarla müəyyən edilən həcmdə və şərtlərlə sistemin fəaliyyətinin həyata keçirilməsi sahəsində hüquq və vəzifələrini həvalə etdiyi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsdir (bundan sonra – operator).

1.7. Sahib zəruri hallarda Qaydaların şərtlərində dəyişiklik edə bilər və bu barədə istifadəçiyə bildiriş göndərilir. İstifadəçi edilmiş dəyişikliklərlə razılaşmadıqda mobil tətbiqdən istifadəni dayandıra bilər.

1.8. İstifadəçi tərəfindən Qaydaların şərtləri pozulduqda sahib dərhal istifadəçinin elektron kabinetinə girişini məhdudlaşdırmaq və istifadəçinin müraciət emalını dayandırmaq hüququna malikdir.

1.9. Şəxsi kabinetinə girişi məhdudlaşdırılmış isifadəçinin yenidən kabinetdən istifadəsi sahibin razılığı ilə həyata keçirilir.

## 2. Mobil tətbiqdən istifadə

2.1. Mobil tətbiqdən istifadə qaydasını sahib müəyyən edir və istifadəçinin bu Qaydalarla müəyyən edilmiş hüquqlarından başqa bütün hüquqlar sahibə məxsusdur.

2.2. Sahib zəruri hallarda Qaydaların şərtlərində dəyişiklik edə bilər. İstifadəçi edilmiş dəyişikliklərlə razılaşmadıqda mobil tətbiqdən istifadəni dayandıra bilər.

## 3. İstifadəçinin şəxsi məlumatları və məxfilik siyasəti

3.1. Müraciət göndərən şəxslərin identikləşdirilməsi, habelə problemlərin və çatışmazlıqların aşkar edildiyi yerin (ünvanın) müəyyənləşdirilməsi məqsədilə aşağıda göstərilən məlumatlar aidiyyəti dövlət informasiya ehtiyatlarından və sistemlərindən AMİS-ə ötürülür:

- Şəxsiyyət vəsiqəsinin fərdi identifikasiya nömrəsi (FİN);
- fiziki şəxsin adı, soyadı və atasının adı;
- hüquqi şəxsin adı;
- ünvan məlumatları
- hüquqi və fiziki şəxsin telefon nömrəsi (mobil və ya stasionar)

3.2. İstifadəçinin özü tərəfindən yaradılan məlumatlara aşağıdakılar daxildir:

- şifrəsi;
- elektron poçt ünvanı
- müraciətin məzmununa əlavə edilmiş digər məlumatlar

3.3. AMİS tərəfindən yaradılan məlumatlara aşağıdakılar daxildir:

- İstifadəçinin sistemə daxil etdiyi müraciətlə bağlı verilmiş nömrə;
- göndərilmiş müraciətin koordinatı və ünvan məlumatları;
- müraciətin yaradılma tarixi

3.4. Sahib tərəfindən istifadəçinin məlumatları digər dövlət qurumlarının səlahiyyətlərinin həyata keçirilməsi məqsədilə istifadə edilə və ya açıqlana bilər.

3.5. İstifadəçinin AMİS tərəfindən qeydiyyata alınan şəxsi məlumatları sahib tərəfindən qanuna uyğun şəkildə qorunur.

## 4. Sahibin funksiyaları

4.1. Sahib mobil tətbiqdən istifadə zamanı istifadəçi tərəfindən göndərilmiş bütün müraciət məlumatlarını emal üçün qəbul edir və 1 (bir) iş günü müddətində sahibin əməkdaşları tərəfindən müraciətin aid olduğu qurum müəyyən edilir və müraciət həmin qurumun sistemdə yaradılan elektron kabinetində yerləşdirilir.

4.2. Sahib mobil tətbiqdən istifadə ilə bağlı istifadəçinin mobil tətbiqdəki şəxsi kabinetinin bildirişlər bölümünə, istifadəçinin sistemdə olan elektron poçt ünvanına və ya mobil nömrəsinə bildirişlər, elektron məktublar və ya qısa mesaj (SMS) göndərir.

4.3. Göndərilmiş elektron məktub və ya qısa mesaj (SMS) göndərildiyi andan istifadəçiyə çatmış hesab olunur.

## 5. Operatorun öhdəlikləri

5.1. AMİS-dən sərbəst və maneəsiz istifadəni, AMİS-nin dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək;
5.2. AMİS-dən istifadə zamanı yaranan nasazlıqları aradan qaldırmaq üçün təxirəsalınmaz tədbirlər görmək;
5.3. AMİS-nə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsi ilə bağlı zəruri təşkilati və texniki tədbirlər görmək;
5.4. İstifadəçiləri, qurumları AMİS-dən istifadə və onun funksiyaları ilə bağlı təlimatlandırmaq, maarifləndirmə və məlumatlandırma işləri aparmaq.

## 6. İstifadəçinin öhdəlikləri

6.0. AMİS-nin mobil tətbiqindən istifadə zamanı istifadəçinin aşağıdakı öhdəlikləri vardır:

6.0.1. Təhrif edilmiş, təhqir, böhtan, yalan olduğunu bilə-bilə hər hansı şəxsin şərəf və ləyaqətinə xələl gətirən və ya onu nüfuzdan salan məlumatlar təqdim etməməli;

6.0.2. Dövlət əleyhinə yönələn, terrorçuluğa, dini ekstremist fəaliyyətə, digər cinayətləri törətməyə açıq çağırışlar və digər qanunvericiliyə zidd hərəkətlər etməməli;

6.0.3. Mobil tətbiqin infrastrukturunun yüklənməsinə səbəb olacaq hərəkətlərə yol verməməli;

6.0.4. Elektron kabinet vasitəsilə istifadə etdiyi şifrə, elektron ünvan və digər bu kimi məlumatları məxfi saxlamalıdır.

6.1. Şəxsi kabinet vasitəsilə həyata keçirilmiş əməliyyatlar məhz istifadəçi tərəfindən həyata keçirilmiş hesab edilir.

## 7. Məsuliyyət

7.1. Məxfiliklə bağlı təhlükəsizlik qaydalarına riayət edilməməsi nəticəsində müvafiq məlumatların hər hansı səbəbdən üçüncü şəxslərə məlum olması halında istifadəçiyə dəyən zərərə görə sahib məsuliyyət daşımır.

7.2. Sahib mobil tətbiqdən istifadə zamanı göndərilmiş məlumatın məzmununa görə, habelə istifadəçi tərəfindən sənəd faylı, mətn, şəkil, audio və video məlumatların verilməsi nəticəsində üçüncü şəxslərin hüquqlarının pozulması ilə bağlı məsuliyyət daşımır.

7.3. Mobil tətbiqin və proqram təminatının surətinin çıxarılması, dəyişdirilməsi, paylaşılması, satılması (realizasiya edilməsi), mübadilə edilməsi və ya tamamilə yaxud hər hansı hissəsinin icarəyə verilməsi, həmçinin proqram təminatının mənbə kodunun “ələ keçirilməsi” nə cəhd edilməsi qadağandır.

## 8. “Cookies” və oxşar texnologiyalardan istifadə

8.1. Sahibin mobil tətbiq vasitəsilə istifadəçinin mobil cihazının bir sıra funksiyalarını (kamera, səs yazısı, “GPS location”, daxili yaddaş) istifadəçinin razılığı ilə aktiv etmək və həmin funksiyalardan istifadə etmək hüququ vardır.
8.2. Sahib informasiyanın saxlanılması üçün “cookies” fayllardan və başqa oxşar texnologiyalardan istifadə edə bilər. Bu fayllar mobil tətbiqin istifadəsinin yüngülləşdirilməsi, keyfiyyətinin artırılması və təhlükəsizlik məqsədilə istifadə olunur.

8.3. Sahib tərəfindən informasiyanın və “cookies” fayllarının istifadəçinin cihazında yerləşdirilməsi onun icazəsi ilə həyata keçirilir.

8.4. Sahib “cookies” fayllarına və oxşar texnologiyalara icazəsiz girişin qarşısını almaq üçün bütün təhlükəsizlik tədbirlərini görür.

8.5. Sahib qeyd edilən texnologiyalardan toplayıb saxladığı istənilən informasiyadan istifadəçinin razılığı ilə istifadə edə bilər.

8.6. Xidmətin yüksək keyfiyyətli təminatı məqsədi ilə sahib istifadəçinin sistemə giriş məlumatlarını saxlayır.